Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

Haraya: SSOF
Göndərilmə nömrəsi: S/15- 3584 /15/17 Tarix: 09 /02/2017

Sənəd necə göndərilir: Elektron poçt *

Səhifələrin sayı: 1

Məhdudluq qrifi: Adi

Təciliiyi: Adi

Vacibliyi: Adi

Azərbaycan Respublikasının
Bolqarıstan Respublikasındakı Səfirliyinə

Sizin SSOF/052/17 saylı, 02.02.2017-ci il tarixli məktubunuza cavab olaraq bildirmək istərdik ki, Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları 02.07.2013-cü il tarixli, 713-İVQ saylı Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş Miqrasiya Məcəlləsi müəyyənləşdirir.

Eyni zamanda, Miqrasiya Məcəlləsinin 30.1-ci maddəsində qeyd edilmişdir ki: "Şəxsi səfər vizası Azərbaycan Respublikası vətəndaşının, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazəsi olan əməkçi miqrantın və ya təhsil alan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin (yalnız həmin əməkçi miqrantın və ya təhsil alan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin ailə üzvləri üçün) müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmiləşdirilmiş dəvətnaməsi əsasında gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir".

Yuxarıda qeyd olunanları nəzərə alaraq diqqətinizə çaddırırıq ki, məktubunuzda adıçəkilən Pavel Qeorqiev Nikolov üçün müvafiq dəvətnamə rəsmiləşdirilməsi məqsədi ilə müraciət daxil olduğu təqdirdə Miqrasiya Məcəlləsinə uyğun olaraq baxılacaqdır.

Konsulluq İdarəsinin rəis müavini — Cavidan Hüseynov

Şöbə müdiri — Toğrul Sadıqov

İcraçı — Müstəcəb Tağıyev

Katiblik üçün: s/3204/17 saylı, 02.02.2017-ci il tarixli məktuba istinad